

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 143 (23.305)

2 avqust 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## N.P.Novruzovun Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Maliyyə-təsərrüfat şöbəsinin müdiri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Novruz Paşa oğlu Novruzov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Maliyyə-təsərrüfat şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 avqust 2019-cu il*

## Nazirlər Kabinetində iyul ayının son 15 günü ərzində yeni qərarlar qəbul edilmişdir

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 iyul tarixli 95 nömrəli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 yanvar tarixli 1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilmişdir.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 25 yanvar tarixli 17 nömrəli və "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 25 yanvar tarixli 20 nömrəli qərarlarında da dəyişikliklər olunmuşdur. Sonuncu Qərara əsasən sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən daxil olan məlumat əsasında aparılır. Qanuna uyğun olaraq qeydiyyata alınmış sığortaedənlər işsizlikdən sığorta haqlarının hesablanmasını və uçotunu aparmalıdırlar. Sığortaedənlər hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq bu barədə hesabatı Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada həmin nazirliyə təqdim etməlidirlər.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Qışlaqabbas kəndində yeni sosial obyektlər istifadəyə verilib



*Avqustun 1-də Qışlaqabbas kəndində kənd və xidmət mərkəzlərinin açılışı olub.*

Bununla əlaqədar keçirilən tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov çıxış edərək bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkə Prezidenti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, istər ölkəmizdə, istərsə də muxtar respublikamızda sosial-iqtisadi həyatın bütün sahələrində dinamik inkişaf qorunub saxlanılıb. Uğurla icra olunan dövlət proqramları muxtar respublikamızın bütün bölgələri kimi, Şərur rayonunun da hərtərəfli inkişafında əhəmiyyətli rol oynayıb.



Kamal Cəfərov qeyd edib ki, bu ilin əvvəlində Şərur şəhərində uşaq xəstəxanasının, Kərimbəyli kəndində 270 şagird yerlik tam orta məktəb binasının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının tikintisi və yenidən qurulması, rayon mərkəzi xəstəxanasının əsaslı təmiri başa çatdırılaraq istifadəyə verilib. Hazırda Şərur şəhərində Mədəniyyət Sarayının, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının inzibati binasının, mərasim evinin, altımərtəbəli, 40 mənzilli müasir yaşayış binasının, Qarxun kəndi ərazisində isə Daxili Qoşunlar üçün nəzərdə tutulmuş infrastrukturların tikintisi, təqaüdçülər klubu ilə mərkəzi univermağın isə əsaslı təmiri və yenidən qurulması davam etdirilir. Eyni zamanda Naxçıvan-Sədərək magistralından Şərur şəhərinə qədər olan, eləcə də şəhərdəki Heydər Əliyev prospektini və altı küçəni əhatə edən 11 kilometrlik avtomobil yolunun yenidən qurulması davam etdirilir.

Diqqətə çatdırılıb ki, əlavə olaraq rayonun yeddi kəndində kompleks quruculuq işləri həyata keçirilir. 4 yaşayış məntəqəsində – Muğanlı, Muğancıq Mehrab, Xələc və Yeni Havuş-Xətai kəndlərində kompleks quruculuq işləri, Məmmədsabir kəndində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, Alışar kəndində kənd və xidmət mərkəzləri, Maxta kəndində isə Çernobıl əlili üçün yaşayış binası inşa olunur.

Bununla bərabər, Şərur şəhərinin və ətraf kəndlərin içməli su təchizatının yenidən qurulması layihəsinin davamı olaraq Zeyvə və Düdəngə kəndlərində içməli su sistemlərinin çəkilişi davam etdirilir. Dizə kəndində isə gücü saniyədə 271 litr olan sutəmizləyici qurğunun və 27 min kubmetr həcmində üç su anbarının tikintisinə başlanılıb.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində ötən il İbadulla kəndində aparılan kompleks quruculuq işlərinin davamı olaraq Qışlaqabbas kəndində də kənd və xidmət mərkəzləri tikilərək istifadəyə verilir.





Diqqətə çatdırılıb ki, kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün 3, bələdiyyə üçün isə 2 otaq, 50 nəfərlik iclas zalı, Yeni Azərbaycan Partiyasının Qışlaqabbas kənd ərazi ilk təşkilatı, kitabxana və klub, həmçinin baytar, statistika, arxiv işçilərinin hər biri üçün 1 otaq nəzərdə tutulub.

Xidmət mərkəzində bərbərxana, gözəllik salonu, dərzi, ət satışı yeri, anbar, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərəcək ki, burada da 7 nəfər işlə təmin olunacaqdır.

İcra başçısı vurğulayıb ki, Qışlaqabbas kənd əhalisinin keyfiyyətli və dayanıqlı elektrik enerjisi və qazla təmin olunması üçün aparılan yenidənqurma işləri zamanı ərazidə 11 elektrik dirəyi basdırılıb, 2 transformator quraşdırılıb, 1200 metrə yaxın izolyasiyalı məftil və kabel çəkilişi aparılıb, 1400 paqonometr uzunluğunda qaz borularında yerdəyişmə, təmir-bərpa işləri həyata keçirilib. Kəndin suvarma suyu ilə təmin edilməsi üçün 1,3 kilometr uzunluğunda suvarma arxları qazılıb, 375 metr əsas yol salınıb, 1 körpü məhəccəri quraşdırılıb, 2 su borusunun başlığı betonlanıb. Bütün bunlarla yanaşı, Qışlaqabbas kəndi ərazisində yerləşən, eramızdan əvvəl IV-I minilliklərə aid Şortəpə nekropolu ərazisində müvafiq işlər görülüb, abidənin ətrafı çəpərlənib.

Bir sözlə, Qışlaqabbas kəndində yaradılan şərait imkan verəcəkdir ki, kənd sakinlərinin gündəlik qayğıları vaxtında həll olunsun.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov çıxışının sonunda Qışlaqabbas kəndində yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirib.

Tədbirdə kənd sakini Bahaddin Qurbanov çıxış edərək deyib ki, muxtar respublikamızda gedən quruculuq-abadlıq işləri daim insanların sevincinə səbəb olur. Görülən işlərin davamı olaraq Qışlaqabbas kəndinin siması da tamamilə dəyişib. Əvvəllər həkim ambulatoriyası kimi fəaliyyət göstərən bina Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində yenidən qurularaq mərasim evi kimi sakinlərin istifadəsinə verilib. Bunların hamısı sakinlərin rahat və firavan yaşayışı üçündür.

Bahaddin Qurbanov vurğulayıb ki, bu il muxtar respublikada "Ailə təsərrüfatı ili" elan olunub. Qışlaqabbas kəndinin sakinləri də çox zəhmətkeş, torpağa bağlı insanlardır. Biz də çalışacağıq ki, bundan sonra da torpaqlarımızı əkib-becərək, bol məhsul toplayaraq "Ailə təsərrüfatı məhsulları" festivallarında, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında rayonu layiqincə təmsil edək. "Muxtar respublikamızın 95 illik yubileyində Qışlaqabbas kəndinin gözəl, abad yurd yerlərindən birinə çevrilməsi bizim üçün ən böyük bayramdır", – deyən Bahaddin Qurbanov Qışlaqabbas kəndində yaradılan şəraitə görə kənd sakinləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra kənd və xidmət mərkəzlərinə baxış olub.

Qışlaqabbas kəndində kənd mərkəzinin tikintisi yerli inzibati idarəçiliyin daha yaxşı təşkilinə, əhalinin qarşılaşdığı problemlərin operativ həllinə, inzibati orqanlarla əhali arasında ünsiyyətin mobilliyinə təkan verəcəkdir. Xidmət mərkəzində isə sakinlərə göstəriləcək xidmətlərin keyfiyyətinin daha da artırılması üçün hərtərəfli şərait yaradılıb. Burada anbarın, ərzaq və təsərrüfat malları mağazalarının fəaliyyət göstərməsi ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satışının təşkilinə imkan verəcəkdir. Bütün bunlar muxtar respublikada həyata keçirilən və insan amilini ön planda tutan sosialyönümlü siyasətin nəticəsi, kənd sakinlərinin həyat şəraitinin yüksəldilməsinə etibarlı zəmin yaradan konseptual inkişaf nümunəsi kimi diqqəti cəlb edir.

**Rauf KƏNGƏRLİ**

## Xarici ticarət dövriyyəsinin həcmi genişlənir

İqtisadiyyatın mühüm inkişaf göstəricilərindən biri olan xarici ticarət əlaqələri Naxçıvan Muxtar Respublikasının müasir inkişaf mərhələsində diqqət mərkəzində saxlanılır. Xüsusən son dövrlər "Made in Azerbaijan" brendinin formalaşdırılması və onun dünyaya tanıdılması istiqamətində Naxçıvandan dünya ölkələrinə ixrac olunan mal və xidmətlərin həcminin artırılmasına da ciddi fikir verilir. Buna görədir ki, muxtar respublikada ixracyönümlü məhsul istehsal edən müəssisələrin sayı ildən-ilə artır. Hazırda muxtar respublikadan ixrac olunan məhsullar, əsasən, yerli xammala əsaslanır. Bunlar arasında mineral sular, təbii duz, emal olunmuş ət və meyvə məhsulları, qazlı aromatlaşdırılmış və spirtli içkilər, meyvə şirələri, sement, gips, gips lövhələr, məsaməli beton məmulatları, metal, mərmər və travertin daş məmulatları, xam dəri, mebel və sair məhsullar vardır. İxrac olunan məhsullar, əsasən, Türkiyə, İran, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə göndərilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərib. Belə ki, 2019-cu ilin ilk yarım ilində muxtar respublikanın xarici ticarət dövriyyəsi 219 milyon 259 min 400 ABŞ dolları təşkil edib. Onun 191 milyon 612 min 200 ABŞ dollarını ixrac, 27 milyon 647 min 200 ABŞ dollarını idxal təşkil edib və 163 milyon 965 min ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

**Səbuhi HƏSƏNOV**

## Muxtar respublikada özünəməxsus ənənələrə malik yüngül sənayenin böyük inkişaf perspektivləri vardır

***Yüngül sənaye müxtəlif növ bitki və heyvan mənşəli xammaldan və bunların süni əvəzedicilərindən istehlak malları (paltar, ayaqqabı, çanta və sair) istehsal sahələrində istifadə olunan parça, xəz, dəri və digər məhsulları istehsal edən sənaye sahəsidir. Bu sənaye sahəsinin muxtar respublikada inkişaf etdirilməsi idxalın azalması ilə yanaşı, ixrac potensialının da güclənməsinə səbəb olacaqdır.***

Muxtar respublikada tarixən yüngül sənaye müəssisələri olub və bu ənənəvi sahəyə çevrilib. SSRİ dövründə Ordubad rayonunda İpəkçilik fabriki və Naxçıvan şəhərində pambıq zavodu tikilib, Şərur rayonundakı isə bərpa olunub. 1933-1937-ci illərdə Ordubad baramaaçan (ipək) fabriki yenidən qurulub, 1956-1965-ci illərdə xam ipək istehsalı 40 tona çatdırılıb. XX əsrin 70-80-ci illərində muxtar respublikada digər sahələr kimi, yüngül sənayenin də inkişafında mühüm nailiyyətlər əldə edilib, xalq təsərrüfatının mövcud sahələri daha da yüksəldilib.

Yüngül sənayenin yeni sahələrin yaradılmasında və inkişafında da özünəməxsus rolu vardır. Çünki bu sənaye növü üzrə istehsal edilən məhsullara bütün müəssisə və təşkilatlarda tələbat yüksəkdir. Naxçıvanın sənaye sahələri içərisində ümumi məhsul istehsalının həcminə görə yüngül sənaye mühüm rol oynayırdı. Bu sənaye sahəsi muxtar respublikada istehsal edilən ümumi sənaye məhsulunun 15,6 faizini təşkil edirdi və daha çox əməktutumlu sahələrdən biri kimi, həm də yerli xammalın ilkin emalı prosesini başa çatdırmaqla məhdudlaşırdı. Yüngül sənaye mühüm sahələri əhatə edir: toxuculuq, tikiş, trikotaj, xalçaçılıq, gön-dəri, ayaqqabı sənayesi və digərləri.

Toxuculuq sənayesi pambıq, yun və ipək parça toxuculuğu üzrə ixtisaslaşmaqla yüngül sənayenin tərkibində məhsul istehsalı üzrə və işləyən fəhlələrin sayına görə də fərqlənir. Tikiş sənayesi isə nisbətən əvvəllər yaranmış sahə olmaqla, 1970-1980-ci illərdə daha da inkişaf edib. Bu sahəyə aid olan müəssisələr muxtar respublikanın bütün rayon və şəhərlərində olan məişət xidməti kombinatlarının nəzdində fəaliyyət göstərib. Bunlardan ən böyükləri Naxçıvan Tikiş Fabriki, Naxçıvan İstehsal Kombinatı və Naxçıvan Fərdi Tikiş Fabriki idi. Müəssisələr yerli sakinlərin, həmçinin Azərbaycanın digər rayonlarının əhalisinin tələbatını ödəmək üçün geniş çeşiddə məhsul istehsal edirdi. Muxtar respublikamızın müstəqil balansda olan bütün sənaye müəssisələrində çalışan sənaye istehsal heyətinin 18 faizindən çoxu müvafiq müəssisələrdə cəmlənmişdi. 1970-ci illərdə Naxçıvan Fərdi Tikiş Fabriki əsaslı surətdə yenidən qurulub, genişləndirilib və texniki bazası yenilənib.



Müstəqillik illərində bu sahənin inkişafı da diqqət mərkəzində olub. Təkcə onu demək kifayətdir ki, Naxçıvanda toxuculuq və tikiş sənayesində istehsal olunmuş məhsulun həcmi 2010-2017-ci illərdə 2 dəfə artıb. Belə ki, toxuculuq və tikiş sənayesi üzrə istehsal olunmuş məhsulun həcmi 2010-cu ildə 17169 min, 2017-ci ildə isə 34536 min manat təşkil edib. Eyni zamanda dəridən məmulatlar və ayaqqabı istehsalında sənaye məhsulunun həcmi 2010-2017-ci illərdə 1,8 dəfə artıb. Belə ki, həmin sənaye məhsulunun həcmi 2010-cu ildə 632 min, 2017-ci ildə isə 1141 min manat təşkil edib.

Toxuculuq və tikiş sənayesində işçilərin orta sayı 2010-2017-ci illərdə 1,14 dəfə artıb. Belə ki, həmin sahə üzrə işçilərin orta sayı 2010-cu ildə 803, 2017-ci ildə isə 916 nəfər təşkil edib. Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalında işçilərin orta sayı isə 2010-2017-ci illərdə 1,24 dəfə artıb. Belə ki, onların sayı 2010-cu ildə 178, 2017-ci ildə isə 221 nəfər olub.



Muxtar respublikada yüngül sənaye sahələrindən biri də trikotaj sənayesidir ki, o da Naxçıvan Alt Trikotaj Fabriki ilə təmsil olunurdu. 1981-ci ildə istifadəyə verilmiş və istehsal gücü il ərzində 9,1 milyon ədəd olan həmin fabrik Azərbaycanın eyni profildə məhsul istehsal edən ən böyük müəssisələrindən biri idi. 1983-cü ildə fabrik tam istehsal gücü ilə işləməsə də, burada 678 nəfər (bütün yüngül sənaye işçilərinin 23 faizdən çoxu) çalışıb, 5,6 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal edilib.

Xalçaçılıq muxtar respublikada yüngül sənayenin ənənəvi sahələrindən biridir. Keçmişdə əl əməyinə əsaslanan xalça toxuculuğu, əsasən, kustar xarakter daşıyırdı. Bu gün də bu sahəyə böyük diqqət göstərilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 19 aprel tarixdə imzaladığı Sərəncamla “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib. Həmin proqramın icrası muxtar respublikamızda xalçaçılığın yüksək səviyyədə inkişafına layiqli töhfələrini verir.

Bu gün muxtar respublikamızda özəl sektorun sürətli inkişafı, onun yüksək məhsuldarlıq və sosial dayanıqlığının yüksəldilməsi dövlətin ali məqsədlərini təşkil etməkdədir. 2018-ci il üçün muxtar respublikada ümumi daxili məhsulun həcmi 2 milyard 773 milyon manat olub. Sənayenin ÜDM-dəki həcmi isə 27,4 faiz, yəni 990 milyon 67 min manat dəyərinə yüksəlib. Onu da deyək ki, 2019-cu ilin yanvar-iyun aylarında ümumi daxili məhsul istehsalı 1 milyard 279 milyon 637 min manatdan artıq olub ki, bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 29,9 faizlik payla sənaye sahəsi tutub və maddi istehsalın payı 57,6 faiz təşkil edib. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-iyun aylarında sənaye məhsulu 1,4 faiz artıb. Bu da onu təsdiq edir ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının məqsədyönlü və uğurlu icra mexanizmi sənayeləşmə siyasətində yüksək perspektivlərə nail olunmasına öz töhfəsini verir.

Yüngül sənayenin əsas səciyyəvi cəhətlərindən biri də qoyulmuş kapitalın tez qaytarılmasıdır. Bu sənaye sahəsi kənd təsərrüfatı, maşınqayırma, və kimya sənayesi ilə sıx əlaqəli fəaliyyət göstərməsi ilə də fərqlənir. Kənd təsərrüfatı yüngül sənayeni ayrı-ayrı xammal növləri ilə, maşınqayırma avadanlıqlarla, kimya sənayesi isə liflər və boyalarla təmin edir. Avadanlıq, kimyəvi liflər və sair alaraq, öz növbəsində, onları istehsal təyinatlı məhsullarla təmin etdiyi üçün yüngül sənayenin mövcudluğu iqtisadi rayonların inkişafının kompleksliyini gücləndirir. Deməli, bu yolla həm də kənd təsərrüfatını inkişaf etdirmək imkanı yaranır. Sənayenin həmin qolu inkişaf etdikdə heyvandarlıqda yun və dəri, bitkiçilikdə isə pambıq və barama istehsalına tələbat artacaq. Həmçinin süni əvəzedicilərə ehtiyac olduğundan kimya sənayesinin bəzi sahələrinin də inkişafına təkan verəcəkdir.

Yüngül sənayenin inkişafı əhalinin sənaye məhsullarına olan tələbatının ödənilməsi, sahibkarlığın inkişafı və digər sosial-iqtisadi problemlərin həllində əhəmiyyətli rol oynayır. Bu sahənin canlanması gələcəkdə muxtar respublikamızın tələb olunan miqdarda istehlak malları ilə təminatına, idxalın aşağı salınmasına və xaricdən asılılığı minimuma endirməyə imkan verəcək. Bununla yanaşı, əmək-qabiliyyətli əhalinin xeyli hissəsinin iş yerləri ilə təmin olunmasına şərait yaranacaq və bu, sosial-iqtisadi dayanıqlığın möhkəmlənməsinə ciddi təkan verəcəkdir.

**Məhəmməd SÜLEYMANOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

---

***“Ailə təsərrüfatları ili” — 2019***

## Torpaq çörəyi, insan isə əməyi ilə...

Naxçıvandan Sədərəyə uzanan magistral yolun sakitliyi, rahatlığı yolboyu seyr etdiyim gözəl evlər, abad küçələr, axarlı-baxarlı həyətlər, bağ-bağçalar, bol məhsullu əkin sahələri insanların yaşayışından, xoş güzəranından soraq verir. Hər il olduğu kimi, bu il də yay girər-girməz dağ kəndlərinə yol alan elat, istirahətə çıxan insanlar buz bulaqların, kəklikotulu dağların mehmanı olublar. Malqarası olanlar dağlara köç edib, əkin-biçinlə məşğul olanlar isə aranda qalıb. Bir sözlə, Sədərək rayonunda hansı təsərrüfata getsən, orada zəhmətkeş insanları görmək mümkündür. Ötən günlərdə Sədərəkdə olarkən rayon sakini Nürəddin Əliyev ilə söhbətimiz zəhmətlə əkib-becərdiyi əkin sahəsinin kənarında baş tutdu:

– Bu gün muxtar respublikamızda elə bir sahə yoxdur ki, orada inkişaf, tərəqqi olmasın. Kəndlərdə yaşayan əhaliyə qayğı ilə yanaşılır, qarşılaşdıqları problem və çatışmazlıqlar yerindəcə həll edilir. Bu diqqət və qayğının nəticəsidir ki, sakinlərdə yurda, torpağa bağlılıq yaranıb. Onlar da bu qiymətli sərvətdən lazımınca bəhrələnir, torpağı özlərinə iş yeri hesab edirlər. Ruzibərəkətlərini oradan götürür, sağlam həyat tərzi keçirirlər. Çalışsan, əziyyət çəksən, bəhrəsini də görərsən. Bir sözlə, bu münbit torpağın, bərəkətli yurdun övladlarının bolluq həvəsi ilə çalışıb halal zəhmətləri ilə firavan həyatlarını, xoş güzəranlarını təmin edə bilmələri üçün hər cür şərait mövcuddur. Aqrar sahədə çalışan insanlara göstərilən dövlət dəstəyi nəticəsində indi yüzlərlə sakin ailə təsərrüfatı yaradıb.



Nürəddin Əliyev onu da dedi ki, illərdir, heyvandarlıq və əkinçiliklə məşğulam. Gecəni-gündüzə qatır, taxıl, tərəvəz istehsal edir, mal-qara saxlayıram. Dövlətimiz kənd adamlarına pay torpaqlarının sərbəst əkib-becərmələri üçün daim lazımi qayğı göstərir. Camaatımız da işgüzardı. Hansı yaşda olursa-olsun, adamlar əkin-tikindən, malqaraya qulluqdan qalmır, yoruldum demirlər. Onlar halal zəhmətdən güc alır, gümrahlıq tapırlar. Kənd adamı illik ruzisini malından, heyvanından, bağ-bağçasından, əkin-biçinindən tədarük edir. Qışa vaxtında hazırlaşırıq ki, şaxta düşəndə, dağların başını qar alanda heç nədən korluq çəkməyək.

Müsahibim qeyd edir ki, əvvəllər toxumu yerə ağsaqqallar, kəndin sayılıb-seçilən kişiləri səpərdilər. Toxumu torpağa əlibərəkətli, torpağın dilini bilən adam əkəndə hamı inanardı ki, sünbülün dəni bol olacaq, xırmanda buğda tayları bir-birinə söykənəcək.

Onu da qeyd edim ki, əkinçilikdə əsas olan keyfiyyətli toxum və gübrələrdən istifadə etməkdir. Bu işdə də kəndlinin ən yaxın köməkçisi dövlətimizdir. Yaxşı toxum əldə etmək üçün muxtar respublikamızda lazımi şərait yaradılıb, bəzi toxumları isə qardaş Türkiyə Respublikasından gətiririk. Gömrük sərhəd-keçid məntəqələrində bizə yaradılan şərait isə, sözün əsl mənasında, alqışa layiqdir. Qardaş ölkədən alıb gətirdiyimiz toxumlara rüsum ödəmirik. Bu da bizə böyük köməkdir.

Nürəddin onu da bildirir ki, əhalinin ərzaq məhsullarına olan tələbatının ilboyu ödənilməsinin təmin edilməsi, məhsulların tədarükü, saxlanması və satışı məqsədilə nə lazımdırsa, edilir. Kəndlərdə soyuducu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Eyni zamanda bu anbarların hər biri yeni iş yerlərinin açılması ilə bərabər, əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsi baxımından da mühüm rola malikdir. İllər öncə məhsulu saxlamaq çətinliyi yaranır və min bir əziyyətlə topladığımız məhsul zay olurdu. Bu gün isə işimiz xeyli asanlaşdırılıb.

Bu ilin yazında 2 hektarda kartof, 1 hektarda soğan, 4 hektarda qarğıdalı, 9 hektarda taxıl əkdiyini deyən təsərrüfat başçısı onu da deyir ki, əkin sahələrində ailə üzvləri ilə birlikdə çalışırlar. Müsahibim diqqətimizə çatdırır ki, yaradılan şərait insanları daha həvəslə işləməyə və gəlir əldə etməyə sövq edir. Ailə təsərrüfatları yaratmaq, sahibkarlıqla məşğul olmaq üçün dövlət dəstəyi də yetərincədir. Kim istəsə kredit götürə, lizinq yolu ilə texnika ala bilir. Əkinçinin çəkdiyi zəhmət dövlətimiz tərəfindən də qiymətləndirilir və bu, bizim işimizdən dördəlli yapışmağımıza səbəb olur.

Nürəddin Əliyevin torpaqda çəkdiyi zəhmətin müqabilində qazandığı uğurlar kənd yerlərində yaşayan bir çox insana nümunədir. Yeri gəlmişkən onu da qeyd edim ki, müsahibim 2017-ci il 21 dekabr tarixdə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətlərinə görə 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilib.

Deyilənlər bir daha təsdiq edir ki, aqrar təsərrüfatla məşğul olan kənd adamı xeyir götürür, sahəsini genişləndirir, öz ailəsinin daha yaxşı yaşamasına şərait yaradır. Zəhmət çəkib torpaq əkib-becərənlər bol məhsul götürdükcə fəxr edirlər. Alnıaçıq, üzüağ, heç kimə möhtac olmadan öz əməyi ilə firavan həyat sürürlər.

**Ramiyyə ƏKBƏROVA**

---

## Təkrar əkinlərin vaxtında aparılması zəruridir

Naxçıvan şəhərinin Tumbul kəndində “Təkrar əkinlərin aparılması və bu sahədə həyata keçirilən aqrotexniki tədbirlər” mövzusunda tarla-seminar müşavirəsi olub.

Tədbirdə yay şumunun aqrotexniki qaydalar əsasında qaldırılması, təkrar əkinlərin keçirilməsi və texnikadan səmərəli istifadənin əhəmiyyətindən söhbət açılıb.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov taxıl əkib-becərən sahibkarlara, eləcə də torpaq mülkiyyətçisi və ailə təsərrüfatlarına göstərilən dövlət dəstəyindən danışıb, onların istehsal etdikləri məhsulları bazar və yarmarkalarda rahat satışının təşkil olunduğunu bildirib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov deyib ki, torpaq-iqlim şəraiti burada əkinlərin təkrar aparılmasına imkan verir. Təkrar əkinlər, əsasən, taxıl biçinindən, həmçinin tezyetişən kartof bitkisinin yığımından dərhal sonra aparılmalıdır. Bu prosesin optimal müddəti 15 iyul tarixdən 10 avqust tarixədəkdir. Odur ki, əkinlər həmin müddətdə aparılmalı, əkin zamanı torpağın münbitliyi qayğısına qalınmalı, daha çox iqtisadi səmərə gətirən bitkilərə üstünlük verilməlidir.

Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Valeh Mehdiyev təkrar əkinlərin aparılmasında lizinq xətti ilə gətirilən yeni, müasir texnikaların rolundan danışıb. Tarla-seminar müşavirəsində ailə təsərrüfatçılarını maraqlandıran suallar mütəxəssislər tərəfindən cavablandırılıb.

**Məhəmməd FƏRƏCOV**

***Ucu-bucağı görünməyən bir ümmana bənzəyən elm xəzinəsinin sirlərinə yiyələnmək hər kəsə nəsib olmur. Bunun üçün gərək bütün səy və bacarığını əsirgəmədən daim öz üzərində çalışasan, hər gün bir addım irəli getməyi bacarasan. Yalnız belə olan halda cəmiyyətdə özünə üstün mövqe qazana bilərsən. Əsrlərdir, dillərdə aforizmə çevrilən böyük şairimiz Nizami Gəncəvinin "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz" misraları da hər birimizə cəmiyyətdə elmin, təhsilin, savadın hər şeydən üstün olduğunu aşılayır, insanları elm dəryasına baş vurmağa, elmin incəliklərinə yiyələnməyə, sənətin, peşənin kamil bilicisi olmağa səsləyir. Müasir dövrümüzdə elm və texnologiyanın günbəgün yeniləndiyini nəzərə alanda elmli, təhsilli yetişməyin, böyük mənada, önəmli olduğu daha qabarıq şəkildə ortaya çıxır.***

*Gəncliyimiz, gələcəyimiz*

## Uğurlu gələcəyə aparan yolun yolçuları

Muxtar respublikamızda da gənclərin elmə, təhsilə, müxtəlif sənət və peşəyə yiyələnmələri üçün hərtərəfli şərait yaradılır, təhsil müəssisələrində innovativ texnologiyalardan, müasir tədris metodlarından istifadə öz müsbət nəticələrini verir. Qəbul imtahanlarında əldə olunan uğurların yüksələn templə artması da məhz təhsil sahəsində görülən işlərin, bu istiqamətdə həyata keçirilən tədbirlərin bəhrələridir. Builki qəbul imtahanlarında qazanılan nailiyyətlər muxtar respublikamızın bütün bölgələri kimi, Babək rayonunun timsalında da ürəkaçandır. Rayonun Nehrəm, Vayxır, Kərimbəyli kəndlərinin və Babək qəsəbəsinin 600-700 intervalında bal toplayan abituriyentləri ilə həmsöhbət olub fikirlərini öyrəndik.

Nehrəm kənd 3 nömrəli tam orta məktəbi 46 şagird bitirib, onlardan 33-ü qəbul imtahanlarında iştirak edib. Məktəbin məzunu **Rüqəyyə Əliyeva** III ixtisas qrupunda 645 bal toplayaraq rayon üzrə ən yüksək nəticə göstərən abituriyentlər sırasına adını yazdırıb. Onunla söhbət zamanı dedi ki, məktəbimizdə yaradılan müasir tədris şəraiti, müəllimlərin şagirdlərə, onların bilikli yetişməyinə göstərdiyi diqqət hər il yüksək bal toplayanların sayının çoxalması ilə nəticələnir. Ötən illərdə bu ürəkaçan halları, tələbə adını qazanan uşaqları gördükcə, onların sevincinə şahid olduqca ürəyimdə "Kaş mənə də bir gün belə xoşbəxtlik qismət ola", – deyərək çox düşünmüşəm. Cari tədris ilində iştirak etdiyim sınaq imtahanlarında yüksək bal topladığım üçün həm müəllimlərimin, həm də valideynlərimin inamını qazanmışdım. Onlar qəbul imtahanlarında məndən yüksək nəticə gözləyirdilər və şükürlər olsun ki, arzuma çatdım. İmtahanda topladığım bal ürəkaçan olsa da, sözün düzü, bundan da artıq nəticə göstərəcəyimə inanırdım. Tələbə adını qazananlar yaxşı bilirlər ki, imtahan vaxtı stress keçirirsən, bildiyin sualları da bəzən səhv yazırsan. Deyirlər ki, məşhur sərkərdə Napoleon Bonapart da imtahandan qorxurmuş. Rəvayətə görə, bir dəfə Napoleonu gecəyarısı təlaşla yuxudan oyadırlar. Görkəmli sərkərdə nə baş verdiyini soruşanda deyirlər ki, üstümüzə düşmən hücum çəkib. Napoleon: "Mən də elə bildim, imtahana çağırırlar", – deyə cavab verir. Neçə-neçə ölkələri fəth etmiş sərkərdələr, böyük alimlər, müəllimlər imtahandan çəkinirsə, onda gör biz şagirdlər necə həyəcan keçiririk.



Onu da deyim ki, 5-6-cı siniflərdən ən böyük arzum böyüyəndə hüquq sahəsində çalışmaq olub. Elə ona görə də Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını seçmək istəyirəm. İnanıram ki, topladığım bal mənə bu ixtisasa qəbul olmağa imkan verəcək. Fürsətdən istifadə edib üzərimdə böyük əmək sərf edən müəllimlərimə, valideynlərimə dərin minnətdarlığımı bildirirəm.

Vayxır kənd tam orta məktəbinin məzunu **Xəyal Seyidov** IV ixtisas qrupu üzrə 645 bal toplayıb. İlk həmsöhbətim, Xəyalın sinif rəhbəri, kimya-biologiya müəllimi Şükufə Məmmədova şagirdi haqqında ürəkdolusu danışdı. Bildirdi ki, məktəbin builki abituriyentləri arasında Xəyal ən yüksək nəticə göstərməklə təhsil müəssisəsinin adını ucaldıb. Xəyalın yüksək bal topladığını eşidəndə bütün müəllimləri kimi, mən də qürur hissi keçirdim. Onun dərslərdəki fəallığı, biologiya və kimyaya həddsiz marağı məndə bu uşağın gələcəyinin parlaq olacağı fikrini yaratmışdı. Bəzi şagirdlər var ki, hər hansı fənnə marağı olsa da, qarşısına məqsəd qoymur. Nəticədə, uğur da qazana bilmir. Lakin Xəyalda bu məqsədi hər zaman hiss etmişəm. O, kimya fənni üzrə sonuncu respublika fənn olimpiadasında uğurla iştirak edərək II yerə layiq görülüb. Sınaq imtahanlarında hər zaman yüksək bal toplayan Xəyalın qəbulda da uğur qazanacağına şübhəmiz yox idi və o, öz biliyi ilə biz müəllimlərini yanıltmadı.



Xəyal Seyidov da qazandığı uğurun sevincini bizimlə bölüşərək bildirdi ki, uşaqlıqdan böyüyəndə həkim olmaq, insanlara şəfa bəxş etmək arzusu ilə yaşamışam. Ona görə də Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisasını seçmək istəyirəm. Mənim üçün daha bir əlamətdar hadisə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşmək olacaq. Biz gənclərə yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq edirəm.

Kərimbəyli kənd tam orta məktəbini bitirən 11 məzun da qəbul imtahanlarında uğur qazanıb. Həmin abituriyentlər arasında ən yüksək nəticəni IV qrup üzrə 615 bal toplayan **Elçin Babayev** göstərib. O, sevincini bizimlə bölüşərək dedi ki, hələ aşağı siniflərdən dəqiq elmlərə marağım böyük olub. Biologiyanı ürəkdən sevmişəm, müəllimim Təranə Səfərovadan bu fənnin sirlərini öyrənmişəm. Sonuncu respublika fənn olimpiadalarında bu fənn üzrə uğurlu iştirakım, ölkə səviyyəsində III yerə layiq görülməyim biologiyaya bağlılığımı daha da artırıb.



Onu da qeyd edim ki, hələ balaca yaşlarımda evdə valideynlərim məni həkim kimi görmək istəyirdilər, yuxarı siniflərdə oxuyarkən muxtar respublikamızda tikilən müasir səhiyyə ocaqlarında oldum, orada çalışan həkimləri gördüm və bu sahəyə marağım daha da artdı. Beləcə, həkimlik peşəsinə yiyələnməyi qarşıma məqsəd qoydum. Uğur qazanmağımda ailəmin, müəllimlərimin dəstəyi böyük oldu. Onlardan aldığım köməklik sayəsində səylə çalışdım və ürəkaçan nəticəni qazandım. Qəbul imtahanlarında əldə etdiyim yüksək nəticə ürəyimdəki ümid qığılcımını daha da şölələndirdi. Arzumu reallaşdırmaq yolunda atacağım növbəti addım Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisasını seçməkdir və inanıram ki, həmin ixtisasda oxumaq mənə nəsib olacaq.

Babək qəsəbə 2 nömrəli tam orta məktəbin 10 məzunu da onlara göstərilən etimadı doğruldub. Həmin abituriyentlərdən **Fizzə İsmayılova** III ixtisas qrupu üzrə 633 bal toplayıb. Fizzənin məktəb illərində dərslərində göstərdiyi fəallıq ilə yanaşı, şahmat oyununa da xüsusi marağı olub. Bu barədə dediklərindən:



– Şahmata həvəsim kiçik yaşlarımda televiziya ekranlarından bu zəka idman oyununu izləməklə yaranıb. Məktəb illərində şahmat dərslərində göstərdiyim fəallıq müəllimlərimin diqqətini çəkdi, valideynlərim həddsiz marağımı nəzərə alıb məni müəllim yanına göndərdilər. Zaman keçdikcə bu idman növü üzrə püxtələşməyə başladım, keçirilən yarışlarda uğurla iştirak edərək diplom və medallar qazandım. Lakin şahmatla məşğuliyyət məni orta məktəb dərslərindən heç də geri salmadı, əksinə, daha da səylə oxumağa davam etdim. Mütaliəyə də marağım olduqca böyükdür. İndiyədək həm xarici, həm də Azərbaycan ədəbiyyatından olan bir sıra əsərlər oxumuşam. Fikrimcə, hər kitab bir həyatdır, həyatda axtardığın suallara ən mükəmməl cavabı elə oxuduğun əsərlərdə tapırsan. Doğru deyiblər ki, yazıçılar minlərlə insanın həyatını, kitab oxumayanlar isə yalnız bir həyatı yaşayırlar.

Fizzə İsmayılova onu da dedi ki, uşaqlıqdan valideynlərim məni alitəhsilli görmək istəyiblər. Müəllimlərim də biliklərə mükəmməl yiyələnməyim üçün əllərindən gələni əsirgəməyiblər. Yuxarı siniflərdə oxuyarkən məsuliyyətimi daha da artıraraq səylə çalışmışam, imtahana hazırlaşan dövrlərdə yuxusuz keçirdiyim gecələr çox olub. İndi şükr edirəm ki, əziyyətim heçə getmədi, yüksək bal topladım. Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını seçmək istəyirəm, inanıram ki, uşaqlıqdan yaranan ən böyük arzuma çata biləcəyəm. Fürsətdən istifadə edib üzərimdə böyük əmək sərf edən müəllim və valideynlərimə dərin minnətdarlığımı bildirirəm.

*Xoşbəxt gələcəyə doğru qapıları yalnız elm, savad, təhsil açır. Hər il muxtar respublikamızda minlərlə abituriyent uğurlu gələcəyə yönələn yolun yolçularına çevrilirlər. Bu il də əldə olunan göstəricilər bu sahədə qazanılan nailiyyətlərin artan templə davam edəcəyini deməyə əsas verir.*

**✍ Nail ƏSGƏROV**

## Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü qeyd edilib

Avqustun 1-də Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin aparat rəhbəri Piri Nağıyev açıb.

Bildirilib ki, ölkəmizdə ümummilli lider Heydər Əliyevin imzaladığı 2001-ci il 9 avqust tarixli Fərman ilə hər il avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Ölkəmizdə dil siyasətinin formalaşdırılması, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəldilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əbülfəz Quliyev "Heydər Əliyev irsi və müstəqillik dövründə ədəbi dilimizin inkişafı məsələləri" mövzusunda çıxışında bildirib ki, ***"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir"***, – deyən ulu öndər Heydər Əliyevin apardığı gərgin işin nəticəsi olaraq 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının 73-cü maddəsi ilə Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Həmin dövrdən etibarən Azərbaycan dilinin elmi şəkildə öyrənilməsinə başlanıldı, dilçi- alimlərin fəaliyyəti üçün geniş imkanlar açıldı, elmi-tədqiqat materialları və kitablar nəşr olundu.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev "Milli varlığımız – ana dilimiz" mövzusundakı çıxışında ədəbi dilimizin zənginliyindən, poetik ifadəliyindən və insanlar arasında mükəmməl nitq vasitəsi olmasından bəhs edib.

"Dil mənəvi dəyərləri yaşadan amildir" mövzusunda çıxış edən Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova vurğulayıb ki, dil millətin varlığını təsdiq edən mənəvi sərvətdir. Dövlət müstəqilliyimizin atributlarından biri hesab edilən ana dilimizi qorumaq, inkişaf etdirmək və yaşatmaq hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Sonra kitab sərgisinə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Tədbirlər keçirilib



*"Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı"nın proqram təminatında bir sıra təkmilləşdirilmələr aparılıb. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində tədbir keçirilib.*

Komitənin sədri Ramilə Seyidova tədbiri giriş sözü ilə açaraq bildirib ki, "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq 2016-cı ildən komitədə uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı istifadəyə verilib.

Qeyd olunub ki, məlumat bankının administratoru komitə, istifadəçiləri isə uşaq hüquqlarını qoruyan 17 təşkilatdır. Elektron məlumat bankı aidiyyəti dövlət orqanları tərəfindən daxil edilən məlumatlar əsasında formalaşır və məsul olan dövlət orqanlarının müvafiq olaraq istifadəsi üçün nəzərdə tutulub.

Ötən dövr ərzində elektron məlumat bankına istifadəçilər tərəfindən 26 mindən çox məlumat daxil edilib. Məlumatların daha operativ daxil edilməsi və statistik təhlil aparılması məqsədilə proqram təminatında yeni təkmilləşdirilmələr aparılıb.

Sonra Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyində internet saytlarının hazırlanması və təhlükəsizliyinin qorunması məsələləri üzrə işçi qrupunun rəhbəri Şahin İsmayılov elektron məlumat bankının proqram təminatında edilmiş yeniliklər barədə məlumat verib və istifadəçilərin suallarını cavablandırıb.

Tədbirin sonunda operatorlara elektron məlumat bankının administratoru tərəfindən istifadəçi adı, parol və digər bağlantı parametrləri verilib.

Şahbuz rayonunun Aşağı Qışlaq kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilib.

Tədbiri Şahbuz Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Turanə Məhərrəmli açıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, milli dəyərlərin, adət-ənənələrin qorunub saxlanması və gələcək nəslə ötürülməsində ailənin böyük rolu vardır. Muxtar respublikada ana və uşaqlara göstərilən qayğının və aparılan maarifləndirici tədbirlərin nəticəsində sağlamlıq imkanları məhdud uşaqların sayı ötən illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə azalıb.

Ramilə Seyidova qeyd edib ki, aparılan təhlillərə görə Şahbuz rayonu üzrə 9008 uşaq vardır ki, onlardan da 126-nın sağlamlıq imkanları məhduddur. Bu da ümumi uşaqların 1,40 faizini təşkil edir. Muxtar respublika üzrə 1945 sağlamlıq imkanları məhdud uşaq vardır ki, onların da 6,48 faizi Şahbuz rayonunun payına düşür. 126 (43 qız, 83 oğlan) sağlamlıq imkanları məhdud uşaqdan 91-i anadangəlmə, 35-i isə sonradan qazanılma sağlamlıq imkanları məhdud uşaqdır.

Şahbuz rayonunun Aşağı Qışlaq kəndi üzrə 5 sağlamlıq imkanları məhdud uşaq vardır..

"Qadınlarda virus hepatitlərinin fəsadları, bətn daxilindəki uşağın xəstəlikləri və onlarla mübarizə yolları" mövzusunda isə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq, həmçinin Şahbuz rayonu üzrə doğulan sağlamlıq imkanları məhdud uşaqların əsas xəstəliklərinin yaranması səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Zamanın hiss olunmadığı məkan...

*(Reportaj)*

***Ömrümüzü, günümüzü yorulmaq, usanmaq bilmədən əqrəbləri ilə hey irəliyə doğru aparan saat yaranandan öz işini, beləcə, eyni ahənglə görməkdədir. Lakin bəzən adama elə gəlir ki, zaman durub, irəliləmir. Xüsusilə də yayın isti, yorucu günlərində hər kəs zamandan gileylənir. Gündüzün istisindən usanıb, axşamın sərin çağını səbirsizliklə gözləyən insanlardan "Bu vaxt niyə ötmür?" sözlərini tez-tez eşitmək olur. Bax yayın belə isti günlərindən birində, sanki zamanın durduğu bir vaxtda şəhərimizdə yenicə istifadəyə verilən, gündüzlər bir başqa, gecələrsə tamamilə möhtəşəm görüntüsü ilə maraqdoğuran "Saat Meydanı" turistik istirahət mərkəzinə üz tuturam.***

Qədim Naxçıvanın müasir hüsnünə vurulan naxışların növbəti çaları olan, geniş turizm potensialına malik diyarımıza gələn turistlərə kompleks şəkildə xidmət göstərilə biləcək bu məkanı – "Saat Meydanı"nı marketinq və satış müdiri Aynur Oruclu ilə gəzirik. Aynur xanım klassik və milli memarlıq üslubunda inşa olunmuş mərkəzin 2 mərtəbəli binadan, 21 metrlik saat qülləsindən və meydandan ibarət olduğunu bildirir. 2 girişi olan binada 5 dükan, uşaq əyləncə bölməsi, gənclər üçün intellektual oyun zalı, otel, 4 zaldan ibarət 125 yerlik kinoteatr, 4 restoran və 2 kafe yerləşdiyini deyir. Burada diqqətimi ilk olaraq çəkən qeydiyyat zalında divara vurulan 4 saatın Naxçıvan, İstanbul, London və Moskva vaxtlarını göstərən əqrəblərinin zaman adlı yükü dayanıb-durmadan fədakarcasına irəliyə doğru çəkmələri olur. Fərqli vaxtların sanki bir-birinə çatmağa tələsirmiş kimi mücadiləsinin yaratdığı doyumsuz mənzərənin sehrindən məni Aynur xanımın səsi ayırır: "Sizi "Batumi" restoranı ilə tanış edim".







Divarlarına qədim Batumi şəhərinin görünüşünü, gürcü mədəniyyətini əks etdirən rəsmlərin işləndiyi restoran 65 nəfərlikdir və burada qonaqlara gürcü mətbəxinin ləziz yeməkləri təklif olunur. Məkan xüsusi günlərlə bağlı tədbirlərin, nişan, ad günü, banketlərin keçirilməsi üçün çox əlverişlidir. Buraya ailəsi ilə gələn İntiqam Əliyev ilə tanış oluram. Ailə bir neçə gündür ki, Bakıdan gəlib. İntiqam deyir: "Hər il yay fəslində buradakı qohumlarımgilə istirahətə gəlirik. Hər gəldiyimizdə də belə yeni ünvanların yaradıldığının şahidi olur və orada vaxt keçirmək istəyirik. Builki gəlişimizdə də "Saat Meydanı"nı görüb, həqiqətən, bu möhtəşəm tikiliyə heyrət etdim və ailəmlə birlikdə bura ilə tanış olmaq istədik. Öyrənəndə ki, meydanda müxtəlif restoranlar var, gənclik çağımda bir neçə il Gürcüstanda yaşadığım üçün gürcü mətbəxinə məxsus olanı seçdim və gördüyünüz kimi, burada qəhvəaltı edirik. Bir azdan film izləyib, mağazaları gəzəcəyik".

Mərkəzdəki digər restoran isə Asiya-Yaponiya, Çin, Sinqapur və Tayvan mətbəxlərinin yer aldığı "Jasmine"dir. Menyusunda onlarla təam olan restoranın əsas müştəri cəlbi yapon mətbəxinə məxsus məşhur suşi yeməyi ilədir. Baş aşpazın dediyinə görə, burada suşinin Ebu Torri, Sakura, Kaliforniya, Filadelfiya növləri daha çox satılır. Bu mətbəxin özəlliyi isə ondan ibarətdir ki, buradakı yeməklərin yanında çörək təklif olunmur – Pekin ördəyi qızartmasının yanında xüsusi lavaşdan başqa. Müxtəlif ət və dəniz məhsullarının yer aldığı 32 nəfərlik bu restoran gənclərin ən çox üz tutduqları ünvandır. Naxçıvan Dövlət Universitetinin tələbələri Aytən Ələkbərova, Şəfiqə İbrahimova, Aytən Sabirli və Sona Cəlilova ilə burada tanış olub fikirlərini öyrənirəm. Onlar Asiya mətbəxini xoşladıqlarını, xüsusilə buraya suşi yemək üçün gəldiklərini bildirirlər. Qiymətlərin tələbə büdcəsinə uyğun olduğunu deyən qızlar buradakı təmizlikdən, sərinlikdən, yeməklərin keyfiyyətindən ağızdolusu danışırlar.

Digər mətbəxlə – milli mətbəximizə və ağız dadımıza daha yaxın türk mətbəxinin ləziz təamlarının yer aldığı "Köşəbaşı" restoranı ilə tanış oluram. Aynur xanım bildirir ki, "Köşəbaşı" Türkiyədə məşhur restoranlar şəbəkəsidir və burada gördüyünüz restoranın eynisi Özbəkistanda, İngiltərədə, bir də Bakıdadır. Bu şəbəkənin özəlliyi ondadır ki, hər yerdə məkan eyni dizaynla qurulur. 54 nəfərlik restoranda 10 nəfərlik VİP salon da fəaliyyət göstərir ki, bura kiçik tədbirlərin keçirilməsi üçün çox gözəldir. Restoranda qonaqlara türk mətbəxinin məşhur yeməkləri – pide, lahmacun, kabab, şorba, salat və şirniyyatlar təklif olunur. Burada rastlaşdığım Güney və Şəbnəm bacılarına yaxınlaşıb məkan haqqında fikirlərini öyrənirəm. Onlar deyirlər: "Saat Meydanı" həm diyarımıza gələn qonaqların, həm də hər bir naxçıvanlının gözəl istirahəti üçün ideal bir məkandır. Burada həm otellərin, həm restoran və kafelərin, həm kino və oyun zallarının, mağazaların bir araya sığdırılması şəhərimizə gələn turistlərlə yanaşı, sakinlərin də hərtərəfli istirahətinin təminatı deməkdir. Ona görə də hər kəs kimi, biz də bu məkana gəlməkdən zövq alırıq. Burada həm müxtəlif mətbəx nümunələrindən dadmaq, çay, qəhvə içmək, kitab oxumaq, film seyr etmək, həm də mağazalardan alış-veriş etmək imkanı vardır".

Restoranlardan sonuncuya – "English Pub"a daxil oluruq. Bir "Pub" dünya standartlarına uyğun necə qurulursa, 47 nəfərlik bu məkan da divarlardakı rəsmlərlə, masaların üstündəki və digər yerlərdə qoyulan aksesuarların özünəməxsusluğu ilə eyni qurulub. Burada qonaqlara Avropa və dəniz məhsulları təklif olunur. Naxçıvanın məşhur sazan balığı da bu restoranın menyuları sırasında yer alır. Menyuda spagetti, toyuq və ət langetləri, salatlar, şorbalar, əsasən, soyuq qəlyanaltılar, hisə verilmiş balıqlar, spirtli içkilər – rakı, viski, qırmızı və ağ şərablar, pivə, araq yer alır.

Restorandan çıxıb burada tanış olacağımız yeni bir ünvana üz tutarkən möhtəşəm saat qülləsindən hər saatın tamamında ətrafa yayılan və hazırda saatın $12^{00}$ olduğunu göstərən – milli musiqimizin səsinə ayaq saxlayır və bu ecazkar səsin gəldiyi səmtə baxıram. Qüllədən bir qədər aşağıda, sanki nağıllarda olduğu kimi qapı açılır, xalqımıza məxsus milli geyimdə, əllərində milli çalğı alətləri olan qadın və kişi fiqurları bir fraqment kimi keçir, musiqi bitərkən isə qapılar bağlanır. Bu gözəl görüntüləri izləyib, gəzintimizi davam etdiririk…

Mərkəzdə 47 nəfərlik 2 "Chocha" və 40 nəfərlik "Chefm" kafeləri fəaliyyət göstərir. "Chocha" kafesi şəhərin cazibədar mənzərələrinə açılan bir neçə terrasla özünəməxsus gözəlliyə malikdir. Kafe tamamilə yerli məhsullar əsasında qonaqlara xidmət göstərir. Burada təklif olunan çeşidli şirniyyatlar, məxsusi dada malik şokoladlar, desert, dondurmalar kafenin birinci mərtəbəsində hazırlanır. Kafedə xüsusi qəhvədəmləyən aparatlarda hazırlanan təbii qəhvə də təklif olunur. Burada 3 yerdə "Oxunması zəruri olan kitablar"dan ibarət guşə yaradılıb ki, kitabsevərlərin sərin və mənzərəli kafedə mütaliə etmələri üçün bu, çox əlverişlidir.

"Chefm"də isə hər kəsin ağız dadı olan fastfoodlar, burgerlər, tostlar təklif olunur. Burada uşaqlara xüsusi hədiyyələr də edilir. Kafedə bir ailə diqqətimi çəkir. Onlara yaxınlaşır, salam verib söhbət etmək istədiyimi bildirirəm. Ailə başçısı böyük məmnuniyyətlə özlərini təqdim edir: "Mən Murad Yerdelen, həyat yoldaşım Melis, qızım Nihan. Türkiyənin Van vilayətindən bir neçə gündür, Naxçıvana gəzməyə gəlmişik. Bura çox gözəldir. Müasir bir şəhərdəyik. Hər gün bu məkanda yemək yeyirik. Hava çox isti olsa da, buradakı sərinlik adama çox xoş gəlir. Təmizliyə söz ola bilməz. Yeməklərin çeşidli olmasını çox bəyəndim, dadları isə möhtəşəmdir".

Nahar vaxtı olduğundan qısa bir fasilə verib günün ikinci yarısı mərkəzdə gəzintini davam etdiririk. Aynur xanımla birlikdə 4 zaldan ibarət 125 yerlik kinoteatra daxil oluruq. Kinoteatrda "Cinema Plus" kinoteatrlar şəbəkəsi tərəfindən ən yeni dünya və yerli filmlər nümayiş olunur. 3D texnologiyası, rəqəmsal kinoproyektorlar, müasir işıq və səs sistemləri filmləri yüksək keyfiyyətdə təqdim etməyə imkan verir. Buna zallardan birində gənclərin seyr etdikləri Rusiya kinematoqraflarının istehsalı olan "Satılmış gülüş" filminin bir hissəsini onlarla birlikdə izləyəndən sonra bir daha əmin oluram. Kinoteatrın girişində monitorlar vasitəsilə film seçmək imkanı yaradılıb. Buraya gələnlərə iaşə xidməti də göstərilir.

Daha sonra "VR" – gənclər üçün intellektual oyun zalına daxil oluruq. 3 oyunçunun, eyni zamanda istifadə edə biləcəyi zalda müxtəlif film-oyunlar təklif olunur. Son texnologiya ilə hazırlanmış filmlərdən birinə – dənizlə bağlı filmə baxıram. Elə ki gözlük və qulaqcığı geyinirəm, film başlanır və mən, sanki oyun zalında deyil, özümü dənizin ortasında hiss edirəm, hansı istiqamətə çevrilirəmsə, yalnız dəniz görünür. Öyrənirəm ki, oyun zalında 24 belə film, oyuna baxmaq olar. Burada da sərinləşdirici suların satışı təşkil olunub. Zaldan çıxarkən elə qapıdaca bir gənclə – Fuad Əliyevlə qarşılaşıram. Ondan "Saat Meydanı" barədə fikirlərini bildirməsini xahiş edirəm. Fuad deyir:

– Bir gənc kimi, qürur duyuram ki, Naxçıvan şəhərində belə gözəl mərkəz tikilib istifadəyə verilib. Otel, restoran, kafe, kinoteatr, oyun zalı, mağazaların fəaliyyətinin bir yerdə təşkili bu məkanı daha maraqlı, cəlbedici edib. Meydanda hər həftə təşkil olunan konsertlər isə daha gözəldir. Xüsusilə gənclərin zövqünə uyğun müğənnilərin dəvət olunması, bu konsertlərdə onları saatlarla yaxından görmək və dinləmək imkanı bu arzuların nə qədər əlçatan olduğunu yaşadır bizə. Bura hər kəsin, xüsusilə biz gənclərin ən sevimli ünvanıdır.

Fuadla sağollaşıb ayrılıram. Qarşıda üzərində "Mini Mini" sözləri yazılmış bir lövhə diqqətimi cəlb edir. Aynur xanımdan bu barədə soruşuram. O isə "Gəlin öz gözlərinizlə görün", – deyir. İçəri keçirik. Bura valideynlərinin mərkəzdə istirahət və alış-veriş edərkən onların 2-8 yaşlı uşaqlarının saxlandığı məkandır. Bu məkan tamamilə uşaq dünyasına uyğun qurulub. İki müəllimin nəzarəti altında burada uşaqlar müxtəlif attraksionlarda əylənir, musiqi alətləri ilə vaxt keçirir, televizora baxır, rəsm çəkir, rəqs edirlər.

Artıq axşamçağıdır. Mərkəzdəki "Karaca" kişi və qadın, "Kids" uşaq geyimləri mağazaları ilə tanış olub, burada satılan keyfiyyətli brend məhsullara baxınca hava tam qaralır. Aynur xanımın dəvəti ilə çay içmək üçün yenidən "Chocha" kafesinə qayıdırıq. Bura qələbəlikdir. Kafenin içərisində, terraslarında, bir də ki buradan liftlə qalxdığımız 5-ci mərtəbədəki dairəvi balkonda hər yaşdan olan insanları görürəm. Onlar arasında gənclər çoxluq təşkil edir. Hər kəs bu yüksəklikdən ətrafı – füsunkar gözəlliyə malik Naxçıvan şəhərinin gecə görüntülərini seyr edir. Şəhərimizin nə qədər gözəl olduğunu məhz buradan onu seyr etdikcə bir daha duyursan: Sayrışan işıqlar göz baxdıqca qarşıda möhtəşəm bir mənzərə yaradır. Gündüzləri bir tamaşa, gecələri bir başqa olan şəhərimizin doyumsuz mənzərəsini. Ətrafdakı insanların hamısı bu gözəlliklərdən danışır, təəssüratlarını bölüşürlər, gördüklərini fotoaparatlara, telefonların yaddaşına köçürürlər. Düşünürəm ki, artıq bu gözəllikləri ifadə etməyə sözün gücü çatmayacaq. Ona görə də hər kəsin gəlib bunları öz gözləri ilə görməsi diləyi ilə bir gün ərzində zamanın necə keçdiyini hiss etmədiyim "Saat Meydanı"ndan reportajımı buradaca bitirirəm.

**Mətanət MƏMMƏDOVA**

## Muxtar respublika birinciliyi başa çatıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atıcılıq Federasiyasının Şərur şəhərində fəaliyyət göstərən Tir Atıcılıq Mərkəzində birgə təşkil etdiyi atıcılığın tir növü üzrə muxtar respublika açıq birinciliyinə yekun vurulub.

Birinciliyin keçirilməsində məqsəd muxtar respublikanın şəhər və rayonlarında bədən tərbiyəsi və idman kollektivlərində tir atıcılığı idman növünün yeniyetmə və gənclər arasında təbliğ edilməsi, idman kollektivləri arasında dostluq əlaqələrinin gücləndirilməsi, gənclər arasında döyüş qabiliyyətinin artırılması və müdafiə vərdişlərinin formalaşdırılması olub.

Birincilikdə 20 idmançı iştirak edib. Yarışın yekun nəticələrinə əsasən Naxçıvan Dövlət Gömrük Komitəsinin əməkdaşı Kazım Cabbarov qalib adını qazanıb. Babək rayon təmsilçisi Rüstəm Bağırov ikinci, Kəngərli rayon təmsilçisi Süleyman Süleymanov isə üçüncü olublar.

Qaliblər təşkilatçılar tərəfindən diplom, plaket və hədiyyə kuponları ilə təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi, döngə 10, ev 3 ünvanında yaşayan Həsənov Aydın Abbasəli oğlunun adına olan MH-0058762 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1495. Sifariş № 520